*Astara Azərbaycanın qədim torpağı, respublikamızın ən gözəl güşələrindən biridir. Bölgənin təkrarsız təbiəti-dənizi, meşələri, dağları burada turizmin inkşafı üçün əlverişli şərait yaradır. Çalışmaq lazımdır ki, insanlar həmin nemətlərdən lazımınca istifadə edə bilsinlər. Eyni zamanda, bu, astaralıların da yaşayışının yaxşılaşmasına xidmət edəcəkdir.*

**İlham ƏLİYEV**




# Qoynu başdan-başa cənnət ASTARA

Astara müstəqil Azərbaycanın cənub nöqtəsində yerləşir, Şərqə açılan qapısıdır. Astaranı haqlı olaraq cənnət məkanı adlandırır, onun hüsnünə heyran qalırlar. Hər gün respublikamıza xarici ölkələrdən, xüsusilə İran İslam Respublikasından, Türkiyədən çoxlu sayda qonaqlar Astaradan gəlib keçir və geri qayıdırlar. Müstəqil Azərbaycan haqqında ilk təəssürat qonaqlara xoş duyğular bəxş edir.

Astaranın təbiəti gözəl, torpaqları münbit, insanları işgüzardır. Astaralılar öz doğma rayonlarının həmişə təəssübünü çəkir, onun sosial-iqtisadi inkişafı, daha da gözəlləşməsi, şöhrətlənməsi üçün əllərindən gələni əsirgəmirlər. Müstəqil dövlətimizin möhkəmləndirilməsində, sosial-iqtisadi inkişafın təmin edilməsində astaralıların xüsusi əməyi vardır.

Son üç ildə Astara sürətlə inkişaf etmiş, abad və yaraşıqlı olmuşdur. Astara rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevin təşəbbüsü və rəhbərliyi altında rayonda sosial-iqtisadi inkşafın davamlılığı təmin edilmiş, mövcud problemlərin həlli istiqamətində uğurlu tədbirlər həyata keçirilmişdir. Görülən tədbirlərin miqyası genişdir. Tikinti, abadlıq işlərinə geniş fürsət verilmişdir. Şəhərin mərkəzi hissəsində ümummilli lider Heydər Əliyevin adını daşıyan gözəl park salınmışdır. Şəhərin böyük küçələrindən biri - Heydər Əliyev prospekti yenidən qurulmuş, yaraşıqlı görkəmə salınmışdır. Şəhərin girəcək hissəsində mənzərəli guşə yaradılmışdır.

Şəhərin Heydər Əliyev prospektinə, Aydın Məmmədov, Mirzə Cəbiyev, Əhəd Muxtar və Qum küçələrinə, Pensər-Kakalos, Pensər Şahağacı, magistral yoldan Artupa kəndlərinə gedən yollara asfalt döşənmişdir.









Rayonda son illərdə təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişafına diqqət və qayğı xeyli artırılmışdır. Məktəblərin madditexniki bazasını möhkəmləndirmək məqsədilə Heydər Əliyev Fondunun, dövlətimizin və Yaponiyanın Azərbaycandakı səfirliyinin vəsaiti hesabına Ərçivan kəndində 2 məktəb, Astara şəhərində, Rinə, Deqədi, Pensər, Qəcimardə, Pəlikəş və digər kəndlərdə yeni məktəb binaları tikilmiş, şəhərdəki 3 və 6 saylı, Kijəbə qəsəbəsindəki orta məktəb binaları əsaslı təmir edilmişdir. 3 kənddə müasir tipli tibb məntəqələri inşa olunmuş, mərkəzi xəstəxanada əsaslı təmir işləri aparılmışdır. Heydər Əliyev Fondunun vəsaiti hesabına rayon mərkəzindəki Mədəniyyət evi əsaslı təmir edilərək yaraşıqlı hala salınmışdır.

Rayon Mərkəzi Kitabxanasında aparılan təmir işlərindən sonra bu mədəniyyət ocağı daha da gözəl və səliqəli olmuşdur. Son 2 ildə rayonda üç dəfə "Uşaq kitab-bilik bayramı" keçirilmişdir. Qeyd edək ki, Respublika Uşaq Muğam müsabiqəsi artıq 4 dəfə Astarada ünvan tapmışdır. Rayonda "Əvəsor" folklor xalq kollektivi, Heydər Əliyev muzeyi, Tarix - Diyarşünaslıq muzeyi, 40-a yaxın mədəniyyət evi və klublar, 80 kitabxana uğurlu fəaliyyət göstərir. Astarada sosial-iqtisadi inkişaf sahəsində qazanılan göstəricilər fərəh doğurur. Rayonda regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı uğurla icra olunur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu il sənaye məhsulu istehsalı 5 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 0,9

faiz, rabitə xidməti 10,3 faiz, tikinti-quraşdırma işləri 6 faiz artmışdır.

Astara Respublikamızın qabaqcıl kənd təsərrüfatı rayonlarından biridir. Burada növbənöv tərəvəz, kartof, taxıl, çəltik, yaşıl çay yarpağı, sitrus və subtropik meyvələr, heyvandarlıq məhsulları istehsal edilir. Hər il istehsal olunan bol məhsul insanların rifah halının yüksəldilməsinə, pul gəlirlərinin artırılmasına müsbət təsir göstərir. İstehsal olunan məhsulun bir hissəsi rayondakı bazalarda satılmaqla yanaşı Bakı şəhərində hər həftənin şənbə və bazar günlərində keçirilən yarmarkalara göndərilir. Alıcılar Astaradan gətirilən məhsulların keyfiyyətindən həmişə razılıq edirlər. Dövlətimizin məhsul istehsalçılarına göstərdiyi qayğı Astaranın kənd adamlarının torpağa bağlılığını artırmış, bol və keyfiyyətli məhsul istehsal etməyə ruhlandırmışdır.

Astarada vətəndaşların qəbulu, ərizə və şikayətlərinə diqqətlə yanaşılır. Rayon İcra Hakimiyyəti tərəfindən yerlərdə keçirilən səyyar qəbullarda əhalinin arzu və təklifləri həmişə nəzərə alınır, icrası üçün tədbirlər görülür. Rayonun 15-dən çox yaşayış məntəqəsinə təbii qazın verilməsi bərpa olunmuşdur.

***Astaranın bu günü gözəldir, sabahı daha parlaq olacaqdır. Bu inamı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət, Astara Rayon İcra Hakimiyyətinin gördüyü tədbirlər, bir də astaralıların işgüzar fəaliyyəti yaradır.***

**Şahin FƏRƏMƏZOV**